

## MƏHƏMMƏD ƏLİ

### MƏNİM NƏĞMƏM

Ürəyimin atəşidir
mənim nəğməm,
mənim nəğməm.
Yollarımın Günəşidir
mənim nəğməm,
mənim nəğməm.

Nədir gül-çiçək kimi,
Alovludur ürək kimi.
Hərdən çaxar şimşək kimi
mənim nəğməm,
mənim nəğməm.

Əyilməzdir, vüqarlıdır,
əhdinə düz ilqarlıdır.
Bir az kədər, qübarlıdır
mənim nəğməm,
mənim nəğməm.

Gəzər el-el, diyar-diyar,
neçə-neçə həmkar arar.
Neçə qəlbdə yuva salar
mənim nəğməm,
mənim nəğməm.

Sərin dağlar havasıdır,
Anamın ilk laylasıdır.
Ölməyəcək, qalasıdır
mənim nəğməm,
mənim nəğməm.

*19.07.2002*

### QAYALAR

A tarixlər şahidi,
min naxışlı qayalar.
Qar-boranlı, tufanlı,
gur yağışlı qayalar.

Sıldırımlı, çınqıllı,
qartal-quşlu qayalar.
Dosta mehriban, yada
sərt baxışlı qayalar.

### BAŞI BOŞ OLANLAR

Anlamayır, qanmır
dediyi sözünü,
ancaq adil sayır
hamıdan özünü
başı boş olanlar.

Vara və sərvətə
yaman həris olar,
insanlığı olmaz,
xudbin, naqis olar
başı boş olanlar.

Nə yerə, nə göyə
sığmaz əndazəsi,
tək özünü sevər.
Bəyənməz heç kəsi
başı boş olanlar.

Dili bir an durmaz,
elə hey danışar.
Başı çıxmasa da
hər işə qarışar
başı boş olanlar.

Görkəmi olsa da
mənən çürük olar
onların varlığı,
millətə yük olar,
başı boş olanlar…

*16.04.2020*

### OQTAY RZA

*(şair Oqtay Rzanın 70 yaşına)*

Yetmiş nədir, qarşıda yüz var,
keçilməmiş neçə dağ, düz var.
Yazılmamış neçə şeir, söz var,
Alim Oqtay, şair Oqtay Rza.

Aldanmadın sən şan-şöhrətə,
əyilmədin vara-dövlətə.
Vuruldun bir halal zəhmətə,
Alim Oqtay, şair Oqtay Rza.

Bir şairsən yurd - elə bağlı,
bir alimsən sirli-soraqlı.
Bir ağacsan qollu-budaqlı,
Alim Oqtay, şair Oqtay Rza.

### DAĞLAR

Gəzdim yamacı, qaşını,
Oxşadım hər bir daşını.
Neçə əsrlərdən soruşdum,
bilən olmadı yaşını.
Zirvəsi uca dağlar,
Tarixtək qoca, a dağlar.

Dərələr keçib, dağ aşdım,
Qayalıqları dolaşdım.
Sənin qoynunda arabir





Çənə-dumana qarışdım.
Nə gözəl yazın, a dağlar,
Tükənməz sözün, a dağlar.

Zirvəyə çıxdım, ucaldım,
Qartallar uçdu, tək qaldım.
Dünya ayağım altında,
Sandım özümü qartaldım.
Qayaları şiş, ay dağlar,
Tapmadım sizə tay, dağlar.

### BU YAZ

Oxşamayır başqa bir yaza bu yaz,
Tez gəldi çəmənə, çöl-düzə bu yaz.

Hələ bitməmişdi ömrü qış fəslinin,
Açdı bol-bol çiçək, gül təzə, bu yaz.

Yağdı gur yağışlar, əsdi küləklər,
Erkən gəldi Günəş pişvaza, bu yaz.

Hər tərəf al-əlvan, oxuyur quşlar,
Oxşayır nazənin bir qıza, bu yaz.

Coşuban daşmadı çaylarda sular,
Sanki qoydu özün sel, naza bu yaz.

Ağaclar açmışdı məhsulçün çiçək,
Vurdu şaxta, gəldi nəs gözə bu yaz.

Deyirlər, olmayıb hələ belə yaz,
Sanki möcüzədir, möcüzə bu yaz.

### NECƏ GÜLÜM?

Qəm ağlarsa Vətən torpağı, necə gülüm?
Onu əsir alıbsa yağı, necə gülüm?

Qartal gəzən o oylaqlarda bayquş gəzir,
Görürəmsə belə bir çağı, necə gülüm?

Yox insafı qəddar düşmənin, heç qıymadı,
Qırdı-tökdü oğul-uşağı, necə gülüm?

Namus-arım tapdalanıbdır, dərdim böyük,
Yox başımda qeyrət papağı, necə gülüm?

Kəlbəcərim, Laçınım düşmən tapdağında,
Eylərsə dad Qarabağım, necə gülüm?

Murov, Qoşqar qəfəsdə şirtək çabalayır,
Nalə çəkir neçə bulağı, necə gülüm?

Doğma yurddan didərgin düşüb neçə oba,
Nə vaxtdır ki, yanmır ocağı, necə gülüm?

Mən özümə xain düşməni qonşu sandım,
O, qəlbimə vurdu bıçağı, necə gülüm?

Məhəmmədəm, qəlbimdəki dərd sığmaz şeirə,
El yanında başım aşağı, necə gülüm?

### BİLMƏZ

Qartaltək hər quş yüksəyə uça bilməz,
Günəştək ulduz, ya Ay nur saça bilməz.

Unutma, saxla yadında, ölüm haqdır,
Bil ondan heç kim heç yana qaça bilməz.

Yaranıb dünya nə zaman, bu bir sirdir,
Onu bir bəşər övladı aça bilməz.

Aqillər bilir söz nədir, hikmət nədir,
Hər nadan bunu anlayıb seçə bilməz.

Vətəni, eli sevməyən, lazım gəlsə,
Canından Vətən yolunda keçə bilməz.

Ana yurd, Vətən eşqiylə Məhəmmədin
Döyünən qəlbi gündüz, ya gecə bilməz.

### OLMAZ

Hər bir buludda sis-duman olmaz,
Hər tarla, düzdən çəmən olmaz.

Zəmidə bitər çoxlu sünbül,
Hər bir sünbüldə bol dən olmaz.

Qəlbimə sığar sevinc, kədər,
Qəlbim kimi hər qəlb gen olmaz.

Laləzər olsa bağça-bağlar,
Yar sinəsitək gülşən olmaz.

Şəhid qanıyla sulanmadı
O yurd, torpaqdan Vətən olmaz.

Xalqımın şair oğluyam mən,
Onu mənimtək sevən olmaz.